# CƏMİYYƏTİN ELMİ-İNFORMASİYA TƏMİNATINDA KİTABXANALARIN ƏHƏMİYYƏTİ

***Səbinə Müsülət qızı Fərzəliyeva***

*AMEA Mərkəzi Elmi Kitabxana*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*sabinafarzaliyeva90@gail.com*

***Açar sözlər:*** *kitabxana, elm, cəmiyyət, əlaqə, informasiya*
***Ключевые слова:*** *библиотека, наука, общество, коммуникация, информация*
***Keywords:*** *library, science, society, communication, information*

**Xülasə:** Məqalədə elm-kitabxana-cəmiyyət kommunikativ məkanının inkişafı məsələsi araşdırılmış, bu prosesdə respublikada mövcud kitabxanaların xüsusilə AMEA MEK-in potensialı təqdim olunmuşdur. Kitabxana daxilində geniş ictimaiyyətlə elmi ictimaiyyət arasında qarşılıqlı əlaqə imkanları qiymətləndirilib lazımi nəticələr əldə olunmuşdur.

Elmi biliklərin yayılması bu gün aktual sosial vəzifələrdən biridir. Elm və cəmiyyət arasında qarşılıqlı əlaqənin tərkib hissəsi kimi elmi ictimaiyyətin nümayəndələri informasiya məzmunu yaradırlar, onun yayılması sosial institutların, o cümlədən kitabxanaların vəzifəsinə çevrilir. Kütləvi kitabxana istifadəçiləri elm və cəmiyyət arasında ünsiyyəti inkişaf etdirmək üçün kitabxanaların potensialına sadiqdirlər. Hal-hazırda onlar üçün kitabxana informasiya əldə etmək vasitəsi kimi əhəmiyyətinə görə internetdən sonrakı yerdədir. Kitabxana elmi-populyar tədbirlərə baş çəkmə məkanlarından biri kimi qiymətləndirilə bilər və onun elmlə cəmiyyət arasında kommunikasiya əlaqələrini gücləndirmək səyləri elm aləminin nümayəndələri ilə daha fəal əməkdaşlığa yönəldilməlidir.

**Резюме:** В статье рассматривается развитие коммуникативного пространства «наука-библиотека-общество» и представлен потенциал публичной библиотеки в этом процессе. В библиотеке были оценены возможности взаимодействия широкой общественности и научного сообщества и достигнуты необходимые результаты.

Распространение научных знаний является сегодня одной из актуальных социальных задач. В рамках взаимодействия науки и общества представители научного сообщества создают информационный контент, распространение которого становится задачей социальных институтов, в том числе библиотек. Пользователи публичных библиотек верят в потенциал библиотек в деле содействия коммуникации между наукой и обществом. В настоящее время для них библиотека по значимости как средство получения информации уступает только Интернету. Библиотеку можно рассматривать как одно из мест посещения научно-популярных мероприятий, а ее усилия по укреплению коммуникационных связей науки и общества следует направить на более активное сотрудничество с представителями научного сообщества.

**Summary:** The article examines the issue of the development of the science-library-society communicative space, and the potential of the public library in this process is presented. The possibilities of interaction between the general public and the scientific community within the library were assessed and the necessary results were achieved.

Dissemination of scientific knowledge is one of the urgent social tasks today. As an integral part of the interaction between science and society, representatives of the scientific community create information content, the dissemination of which becomes the task of social institutions, including libraries. Public library users are committed to the potential of libraries to develop communication between science and society. Currently, for them, the library is second only to the Internet in importance as a means of obtaining information. The library can be assessed as one of the places to visit

for popular science events, and its efforts to strengthen communication between science and society should be directed to more active cooperation with representatives of the scientific world.

Müasir informasiya cəmiyyəti tələb edir ki, bütün sahələr bir-biri ilə qarşılıqlı əlaqədə olsun. Yeni rəqəmsal reallıqlar müxtəlif növ məlumatların, o cümlədən ənənəvi informasiyanın ötürülməsinə xüsusi tələblər qoyur. Kitabxana ənənəvi sosial qurum kimi bu tələblərə, eləcə də oxucular və xidmət istifadəçiləri ilə ünsiyyət sahəsinə uyğunlaşmağa məcburdur.

Beynəlxalq kitabxanalar həm də böyük kitabxanaların əsas şüarı budur ki, kitabxana oxucuların hər cür bilik əldə edə biləcəyi yerli informasiya mərkəzidir. O, bütün insanların informasiyaya universal çıxışını və ondan istifadəni təmin etmək öhdəliyini yerinə yetirmək üçün daim yeni kommunikasiya vasitələrinə uyğunlaşan bilik cəmiyyətinin mühüm tərkib hissəsi olmalıdır [1].

Kitabxananın cəmiyyətə daha da yaxınlaşdırılması və tələb olunan ədəbiyyatın əlçatanlığının təmin olunması üçün AMEA MEK-də elektronlaşmaya, kitabın çap variantı ilə yanaşı elektron variantının da olması işində uğurlu addımlar atılmışdır. Belə ki, yaxın bir il müddətində kitabxanadakı mövcud ədəbiyyatın Reproqrafiya şöbəsində elektronlaşdırılaraq, skan olunub yerləşdirilməsi prosesinə start verilmişdir və bu günə kimi  təxminən 11500-dən çox ədəbiyyat elektronlaşdırılaraq kitabxananın rəsmi səhifəsində (mek.az) yerləşdirilmişdir. Səhifədə yerləşdirilən kitabların sayı hər gün mütəmadi olaraq artmaqda davam edir. Kitabxanaya daxil olan yeni ədəbiyyatlar isə müəllifin istəyi ilə kitabın elektron variantı (PDF) təqdim edildikdə Komplektləşdirmə şöbəsində "Müəllif müqaviləsi" tərtib olunur.

Kitabxana cəmiyyətin müasir inkişaf mərhələsində biliyin qoruyucusu kimi resurs mərkəzinə və müxtəlif informasiyaların yayılmasında vasitəçi ola bilər. Belə ki, kitabxana bələdiyyə orqanlarının və yerli ictimaiyyətin tərəfdaşı ola bilər və bu və digər qurumlarla sıx əməkdaşlıq etməlidir.

Hal-hazırda kütləvi kitabxanaların sosial rolu dəyişir. Xüsusilə, kitabxana əhalinin müxtəlif qrupları arasında qarşılıqlı əlaqənin təşəbbüskarına çevrilir. Bu yolla kitabxanalar müxtəlif sosial kommunikasiyaları inkişaf etdirə bilərlər. İşimizdə elmi ictimaiyyətlə bütövlükdə cəmiyyət arasında elmi ünsiyyətə və bu ünsiyyətdə vasitəçi kimi kitabxananın yerinə xüsusi diqqət yetirilməkdədir.

Hal-hazırda AMEA Mərkəzi Elmi Kitabxananın bu yöndə hazırlanmış və həyata keçirilməsinə 2024-cü ilin iyun ayından başlanılan "Açıq qapı" günlərini xüsusilə qeyd etmək yerinə düşərdi. Belə ki, kitabxana hər ayın ilk iki gününü (əgər ilk iki gün şənbə-bazar günlərinə təsadüf edirsə, növbəti iş günləri) vətəndaşlar üçün tam ödənişsiz, ekskursiya və kitabxana fondları ilə tanışlığı həyata keçirir. Kitabsevərlər qeyd edilən tarixlərdə Azərbaycanın zəngin mədəni irsinin mühafizə olunduğu MEK-də oxucular üçün yaradılmış şəraitlə, göstərilən xidmətlərlə, zəngin kitab fondu, elektron kataloq, kitabxana sistemləri ilə və s. yaxından tanışlıq imkanı əldə edəcəklər. Kitabsevərlər MEK-in Sərgi salonunda Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin həyat və siyasi fəaliyyətini əks etdirən nəşrlərdən ibarət guşələrlə tanış olurlar [2].

"Açıq qapı" günləri zamanı vətəndaşlarımız kitabxananın fəaliyyəti, maddi-texniki bazası, ən müasir tələblərə cavab verən fondları haqqında məlumat əldə edir, Sərgi salonu, yardımçı fondlar, tanınmış alimlərin şəxsi kitab kolleksiyalarından ibarət Akademiklər kitabxanası, Akademiklər zalı, Qarabağ müharibəsi qəhrəmanları, Nadir kitab fondu və buradakı digər guşələrlə tanış olurlar.

Elmi informasiya mübadilə məhsulu kimi çıxış edə bilər, kitabxana əsas mənbəyə, bu informasiyanın alıcısı isə kitabxana xidmətlərindən oxucu-istifadəçiyə çevrilə bilər.

Kitabxanamızda beynəlxalq və respublikadaxili kitab mübadiləsi həyata keçirilir. Hal-hazırda kitabxanamıza Beynəlxalq kitab mübadiləsi yolu ilə  Türkiyə, Rusiya, Almaniya, Fransa, Belarus, Bolqarıstan, Yaponiya və s. ölkələrdən ədəbiyyatlar mütəmadi olaraq daxil olmaqda davam edir. Mərkəzi Elmi Kitabxana isə rəhbərliyin təlimatlarına uyğun olaraq Respublika daxilində mübadilə vasitəsilə kitab göndərməkdə davam edir. Belə ki, cari ildə Qarabağ Universitetinə, Zəngilan rayonu-

nun Ağalı kəndində yerləşən orta məktəbə digər müəssisələrə kitab göndərilmiş və bu proses davam etməkdədir [3].

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) direktoru tex.e.d. Hüseyn Hüseynovun Türkiyənin Ankara və İstanbul şəhərlərində işgüzar səfərləri də yerli kitabxanalarla yanaşı xarici ölkələrdəki təcrübələrlə tanışlıq və əməkdaşlıq baxımından atılmış uğurlu addımdır . Səfər zamanı Hüseyn Hüseynov Beynəlxalq Kitabxana və Texnologiya Festivalına qatılıb, bir sıra görüşlər keçirib, tədbirlərdə iştirak edib. Festival çərçivəsində kitabxanalarda süni intellekt və müasir informasiya texnologiyalarına əsaslanan rəqəmsal innovasiyaların tətbiqi praktikası və perspektivləri barədə fikir mübadiləsi aparılıb, kitabxanalar üçün İT həlləri və avadanlıqlar hazırlayan bir sıra şirkətlərlə görüşlər keçirilib, bu həllərin MEK-də tətbiqi ilə bağlı ilkin razılığa gəlinib. Mərkəzi Elmi Kitabxanın bu kimi fəaliyyətləri onun müasir dövrlə uyğunlaşan əlaqələrini genişləndirir, informasiya almaq istəyən kitabxana oxucusu üçün daha geniş yollar açır [4].

Beləliklə, biz kitabxanaları cəmiyyətə daha yaxın etmək üçün aşağıdakı vəzifələri yerinə yetirməliyik.

1. Bütün əhali qrupları üçün əlçatanlıq. Tanış və əlçatan yer. Kitabxananın kolleksiyasına daxil olmaq və maliyyə xərcləri olmadan bütün tədbirlərdə iştirak etmək imkanı.

2. Elmi. Müxtəlif bilik sahələri üzrə elmi ədəbiyyat kolleksiyalarının və məlumat bazalarının mövcudluğu. Texniki avadanlıq, internetə çıxış. Elmi, elmi-populyar və maarifləndirici tədbirlərin keçirildiyi yer.

3. Ünsiyyət imkanları. Müxtəlif sahələrdən olan ekspert və alimlərlə görüşlər. Kitabxananın kommunikasiya imkanları internet vasitəsilə də həyata keçirilə bilər, yəni: onlayn köməkçilər, kitabxananın rəsmi saytı və sosial şəbəkələr vasitəsilə.

AMEA Mərkəzi Elmi Kitabxanası yuxarıda sadalanan müddəaları yerinə yetirməyi qarşısına məqsəd qoymuşdur. Həm kitabxana binasının mərkəzi və əlçatan ünvanı, müasir texnika ilə təmin olunması, "Açıq qapı" günlərinin, yeni nəşr olunmuş kitabların təqdimatının təşkili, əməkdaşların fəaliyyəti kitabxanamızı cəmiyyətə daha da yaxınlaşdırmış, onlardakı ktab sevgisini daha da artırmışdır. Kitabxana bilik ocağı kimi biliyin saxlanması və yayılmasını təmin etməklə, elmi biliklərin populyarlaşdırımasına əvəzsiz dəstək verməkdə davam edir.

**Ədəbiyyat**


1. https://einfolib.uz/post/mesto-biblioteki-w-protsesse-kommunikatsii-nauki-i-obestwa
2. https://science.gov.az/az/news/open/29499
3. https://mek.az/page2.php?id=1498
4. https://mek.az/xeber.php.id=1532